# DAŞ YADDAŞINDAN AĞRI YADDAŞINA



Biz kənd uşaqları balaca vaxtı oyuncaqlarımız olmadığına görə daşlarla oynayırdıq. Onda bilmirdik ki, əlimizdə tutduğumuz, biri-birimizə atdığımız, evcik qurduğumuz DAŞLAR özündə böyük möcüzələri gizlədir. DAŞ özündə mənsub olduğu xalqın, millətin tarixi izlərinin və yaddaşının ən etibarlı saxlancıdır. Qobustan qayaları, Orxan-Yenisey abidələri, Sibirin və Altayın kitabələri Türk millətinin daş yaddaşının əbədi sənədləridir. Həyatımla bağlı insanlar arasında özünəməxsus yer tutan,tele-jurnalist və publisist Kamil Məhərrəmoğlunun “Tarixi özündə yaşadan kənd”, “Azərbaycan türkünün daş pasportu” kitablarını oxuyanda bu hissləri keçirdim. Bu il Kamilin 60 yaşı tamam olur.O, 1959-cu il martın 1-də Naxçıvanin qədim Nehrəm kəndində anadan olub.Birinci ixtisası mühəndis -mexanik, ikinci ixtisası Jurnalistdir.1982-ci ildə Azərbaycan Politexnik İnsitutunu, 2002-ci ildə isə Azərbaycan Beynəlxalq Univeristetinin jurnslistika fakultəsini bitirib. 1999-cu ildən publisist kimi fəaliyyət göstərir. 2005-ci ildən İctimai Televiziya və Radio Yayımları şirkətində fəaliyyətə başlayıb. 2011-ci ildən dinləyicilərin böyük rəğ-bətini qazanan Həmsöhbət verilişinin yaradıcısı və aparıcısıdır. Kamilin ilk kitabı “Uzun, incə bir yoldayam” adında çap olunub. Hələ onun tarixi abidələrimizə, etnoqrafiyamıza həsr olunan məqalələrini dilə gətirmirəm... Mən hər bir alimin, ziyalının, ümumən şəxsiyyətin ictimai dəyərini onun öz xalqına etdiyi xidmətlərlə ölçürəm. Kamil yaşadığı mühitdə uzaqdan boyu görünən adamdır. Təbii ki, Kamilin boyunun uca olduğuna görə yazmıram. Hərkəndki bu da əsas şərtdir. Kamil əsl Nehrəmlidir. Biz çox vaxt ona Kamil Nehrəmli deyirik. O, uca boylu, gülərüz, həmişə yaraşıqlı, sifətində gülüş olan şirin dilli, gözəl nitq qabiliyyətinə malik bir insandır. Elə bu şirin ləhcə ilə apardığı verilişlərlə O, radio dinləyicilərinin qəlbini ələ ala, hörmətini qazana bilir. Dəfələrlə biz onunla ictimai radioda həmsöhbət olmuşuq.

Mən Kamili dinləməkdən zövq alıram. Həm də ona görə ki, O, ədəbiyyatımızı, xüsusən, poeziyamızı gözəl bilir, sevir, böyük həvəslə təbliğ edir. Mən deyərdim ki, O, adı jurnalist deyil, istedadlı ədəbiyyatçı, yazıçı-publisistdir. Yenə qayıdıram unudulmaz uşaqlıq dövrünə. Biz kənd uşaqları ilk dəfə ayaq açıb həyatdə, bağçada yeriyəndə yıxılmışıq, heyrətdən açıq qalmış ağzımıza həyətimizin torpağı dolub. Vətənin dadını ilk dəfə elə o anda hiss etmişik. Məşhur mahnıda deyildiyi kimi “haradan başlanır vətən” ...sualına belə cavab verə bilərik: həyətimizdən, kəndimizdən. Kamilin tarixi özündə yaşadan kənd kitabı Nehrəmin tarixinə, bu gününə və görkəmli insanlarına həsr olunub.Mən onu “Nehrəmnamə”, Kamilin “vətənnaməsi” hesab edirəm. Bu kitabda Kamilin təkcə xətti yox, həm də ürəyi var.Kitabın konsepsiyasi Böyük Heydər Əliyevin Nehrəm barəsində qiymətli fikirləri əsasında qurulub: ----Mən bu kəndi həmişə sevmişəm, indi də sevirəm.Bu sözləri bu gün Nehrəmlilərə böyük hörmət və ehtiram hissi ilə deyirəm... Təkcə Cəlil Məmmçədquluzadə kimi böyük bir şəxsiyyəti dünyaya bəxş etdiyinə görə Nehrəm kəndi xüsusi diqqətə və hörmətə layiqdır. Kamilin kitabları elə-belə yaranmayıb: Bir publisist kimi Əshabi-Kəfh, Nuhun qəbri, İnanc yerlərimiz, Duz dağı, Sirli su-sirab, Qarabağlar, Sədərək, Qız qalası, Qobustan vəsair kimi sənədli filmlərin yaranması onun adı ilə bağlıdır. Nehrəm Nuh peyğəmbərin qədəmlərinin dəydiyi məkan kimi təqdir olunur. Bu kitab görkəmli Nehrəmlilər haqqında ensiklapediya xarakteri daşıyır. Burada həmkinin Kamilin nəsli, ailəsi haqqında da geniş məlumat yer alır. Azərbaycan türkünün daş pasportu kitabı böyük dini və tarixi əhəmiyyəti olan müqəddəs abidələrimiz, “Əshabi-Kəfh” və “Nuhun qəbri” haqqında əfsanələr və reallıqlar əsasında yazılıb. Müəllifin qənahəti belədir: -----“ Əshabi – Kəfh” uca yaradanın möcüzəsi, dünyanın ən qədim ziyarətgahlarından biri, İnsanların Tanrıya, təkallahlığa sığındığı bir yerdir. Bu heç də əfsanə deyil,əsrlərlə insanların qan ytaddaşında qorunub saxlanmış, böyük yaradanı inamında yaşatmış və nəhayət müqəddəs Qurani-Kərimdə təstiqlənmiş bir gerçəklikdir... Kamil Məhərrəmoğlunun “Azərbaycan türkünün daş pasportu” kitabı əfsanəni, rəvayəti tarixləşdirən, tarixə çevirən bir əsərdir.Burada əfsanə, mif və rəvayətlər əsas tarixi gerçəkliyin mərkəzi kimi verilir. -Dunya tufanı haqqında Nuh əfsanəsi mifoloji dünyagörüşü özündə əks etdirir, və bu keçmiş yaddaşın unudulmadığını göstərən folklor nümunələrindən biridir. Nuhun adı ilə bağlı Naxçıvanda çoxlu kəndlər, yurd yerləri var. Bu da çox güman ki, Azərbaycanın qədim tarixi köklərə malik olmasından irəli gəlir. Ümumiyyətlə, tarixilik, təfəkkürün tarıxiliyi Kamil Məhərrəmoğlunun əksər yazıları üçün səciyəvidir.Bu isə obyektiv həqiqəti ortaya çıxarmaq üçün başlıca şərtdir. “ bir qayaya söykəmmişəm, deyirəm kaş, bax beləcə daşa dönəm yavaş-yavaş” – Kamilin vətən daşları haqqında tədqiqatlarında öz eloğlusu Məmməd Arazın daşa dönmək etirası, ulu babası Mirzə Ələkbər Sabirin “ daş qəlbli insanları neylərdin , İlahi” fəryadı “daş atıb başını tutan” adamlara bir vətəndaş qəzəbi var. Bu istək, bu fəryad və bu qəzəb Kamilin əsərlərində daş yaddaşından ağrı yaddaşına çevrilir. Daş yaddaşı gen yaddaşı, qan yaddaşı ilə bərabər, ağrı yaddaşı milli-mənəvi özünüdərkin başlıca ifadəsidir. Kamil Məhərrəmoğlunun 60 illik insan ömründə gəlib çıxdığı, intixab və təstiq etdiyi həqiqət budur.

***Nizaməddin Şəmsizadə,***
***Azərbaycan dövlət mükafatı laureati,***
***filologiya elmləri doktoru, professor***
***26 fevral 2019***